29 yanvar bələdiyyə seçkiləri günüdür

# Seçki hazırlığı davam edir

**Bələdiyyə seçkilərinə hazırlıq davam edir. Qeyd edək ki, Mərkəzi Seçki Komissiyasının 2024-cü il 27 noyabr tarixli qərarı ilə bələdiyyə seçkiləri 2025-ci il yanvarın 29-na təyin edilib. Bu, indiyə kimi respublikamızda keçirilən 6-cı əsas bələdiyyə seçkisi olacaq.**

## Seçkilər 685 bələdiyyəyə keçiriləcək

Xatırladaq ki, respublikamızda sonuncu dəfə bələdiyyə seçkiləri 5 il əvvəl - 2019-cu il dekabrın 23-də keçirilib. O zaman 1606 bələdiyyəyə seçkilər keçirilmişdi.

Son illərdə respublikamızda aparılmış genişmiqyaslı islahatlar, dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində və ölkəmizin sosial-iqtisadi inkişafında əldə edilmiş nailiyyətlər, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi yerli özünüidarəetmə orqanları olan bələdiyyələrin də fəaliyyətinin müasir səviyyədə qurulmasını zəruri edib. Bu məqsədlə bələdiyyələrin yerləşdiyi yaşayış məntəqələrinin sosial-iqtisadi vəziyyəti və digər yerli xüsusiyyətləri əsas götürülərək cari ildə bələdiyyələrin birləşməsi həyata keçirilib. Xarici təcrübə də onu göstərir ki, bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması, iqtisadi və maliyyə potensialının gücləndirilməsi yollarından biri də onların birləşməsidir. Bunun da nəticəsində bələdiyyələrin ümumi sayı azaldılaraq 685-ə çatdırılıb. Bu birləşmə prosesi yerli özünüidarəetmə orqanları üçün yeni üfüqlər və imkanlar açır, bələdiyyələr böyüyür və güclənir.

Beləliklə, budəfəki bələdiyyə seçkiləri 118 seçki dairəsi üzrə 685 bələdiyyəyə keçiriləcək.

## YAP namizədlərini müəyyən edib

MSK tərəfindən ötən ayın 27-də bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin təqvim planı təsdiq olunub. İndiyə kimi 12 siyasi partiyadan 300-dən artıq səlahiyyətli nümayəndə qeydə alınıb, 5 min nəfərdən artıq şəxsin namizədliyi irəli sürülüb.

Onu da qeyd edək ki, avanqard siyasi qüvvə kimi hər zaman ictimai-siyasi proseslərin önündə gedən Yeni Azərbaycan Partiyası bələdiyyə seçkiləri ilə əlaqədar namizədlərini artıq müəyyən edib. Bu barədə YAP İdarə Heyətinin dekabrın 16-da keçirilən iclasında məlumat verilib. Qeyd edilib ki, seçkilərin keçiriləcəyi 685 bələdiyyə üzrə YAP-ın ümumilikdə 8071 nəfər namizədi müəyyən edilib. "İnanırıq ki, növbəti bələdiyyə seçkiləri Ulu Öndər Heydər Əliyevin dəyərli mənəvi-siyasi mirası olan və Prezident İlham Əliyevin rəhbərliyi ilə şərəfli inkişaf yolunda əmin addımlarla irəliləyən Yeni Azərbaycan Partiyasına xalqımızın inam və etimadının növbəti bariz nümunəsi olacaq", - deyə YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib.

Namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin dairə seçki komissiyasına təqdim edilməsi dekabrın 10-dan başlayıb və dekabrın 30-u saat 18.00-dək davam edəcək.

Seçki kampaniyasının əsas mərhələlərindən biri isə namizədlərin seçkiqabağı təşviqatının həyata keçirilməsidir. Bələdiyyə seçkilərində seçkiqabağı təşviqat aparmaq məqsədilə ölkə üzrə bələdiyyələrin yarısından çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına aşağıda göstərilən media subyektlərində ödənişsiz efir vaxtı və dərc üçün yer ayrılacaq. Ödənişsiz dərc üçün yer "Azərbaycan", "Xalq qəzeti", "Respublika" və "Bakinski raboçi" qəzetləri tərəfindən, ödənişsiz efir vaxtı isə İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən ayrılacaq.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*



Azərbaycan.- 2024.- 18 dekabr (№ 279).- S.5.